SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

# 5 İLLİK XÜLASƏ

## 2019-2024



Hazırladı: Aytən Babayeva

Bakı - Fevral, 2024

© SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ




## SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ (STM) -

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır. Mərkəz ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən, dəyişiklikləri proqnozlaşdıran və cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları, elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini ictimaiyyətə və dövlət qurumlarına təqdim edən publik hüquqi şəxsdir.

# MÜNDƏRİCAT

## STM XÜLASƏ


01 Missiya, strateji hədəf və məqsədlər

02 Fəaliyyət istiqamətləri

03 Konkret vəzifələr

04 Profil xətt

05 STM rəqəmlərdə!

06 5 illik inkişaf

07 İcmal statistika

08 Analitik materiallar

09 Yaddaqalan tədbirlər

10 STM - daim əlçatan!




## MİSSİYA

- Sosioloji tədqiqatlar vasitəsilə dövlət-ictimai dialoqda tədqiqat əsaslı idarəçiliyə töhfə məqsədli elmi-metodoloji təhlil, ictimai rəyin öyrənilməsi institutunun inkişafında iştirak

## STRATEJİ HƏDƏF VƏ MƏQSƏDLƏR

- Milli, eləcə də regional və beynəlxalq gündəlikdəki siyasi-iqtisadi məsələlər, ictimai fikrin sosial aspektləri və düşüncə trendlərinin sosioloji cəhətdən araşdırılması nəticəsində hazırlanmış analitik hesabat və icmallar, elmi arayışlar və siyasət təklifləri, tematik mövqe sənədləri, ekspert məqalələri və s. vasitəsilə tədqiqat xarakterli, data yönümlü, nəzəri və praktik əsaslı yanaşmaların siyasi idarəçilikdə strategiyaların həyata keçirilməsi üzrə hökumət qərarqəbuledicilik prosesində nəzərə alınması və tətbiqində davamlı tədqiqat fəaliyyəti
- Tədqiqatların dayanıqlı rolunun artırılması, təhlil və proqnozlaşdırma, ictimai rəyin ölçülməsində aparıcı analitik təcrübə formalaşdırılması
- Dövlət-cəmiyyət qarşılıqlı əlaqələrinin ardıcıl dinamikası və tendensiyaların öyrənilməsi, metodoloji təhlillər və innovativ üsullarla keçirilən rəy sorğuları əsasında publik mövqeyin tədqiqi, siyasi-ictimai təkliflər və tədqiqatlar vasitəsilə fərqlənən keyfiyyət standartı müəyyən edilməsi, dövlət və qeyri-dövlət aktorları ilə tədqiqatlar istiqamətində proaktiv əməkdaşlıq
- Sosiumun əhəmiyyətli mövzularına dair vətəndaş-dövlət, ekspert-cəmiyyət əlaqələrində ictimai müzakirə platforması kimi çıxış edilməsi
- Tədqiqatlar sahəsində çoxşaxəli milli və beynəlxalq fəaliyyət modeli təqdim edərək daim müasir və yenilənən beyin mərkəzinə çevrilmə

# FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

- İctimai münasibətlərinin inkişafı ilə bağlı statistik göstəricilərin təhlili, müasir texnologiya və innovativ üsullarla kəmiyyət, keyfiyyət tədqiqatları aparılması, blitz, dərinləşdirilmiş intervyu, fokus qrup, ekspert sorğuları, orta və uzunmüddətli, periodik və s. ictimai rəy sorğuları, sosioloji araşdırma layihələrinin icrası

- Hökumət islahatlarının səmərəliliyinin artırılması məqsədilə, qəbul edilən qərar, icra edilən tədbirlərin mümkün təsirlərinə dair təhlillərin formalaşdırılması

- İctimai əhəmiyyətli mövzularla bağlı müvafiq tədbirlər, konfrans, seminar, təqdimat, dəyirmi masa, debatlar təşkil edilməsi, bu istiqamətdə vətəndaş cəmiyyəti institutları ilə intensiv əməkdaşlıq edilməsi və əlaqədar səmərəli müzakirə mühitinin dəstəklənməsi

- Milli və beynəlxalq təşkilatlar, analitik qurumlar, beyin mərkəzləri, tədqiqat universitetləri ilə əlaqələrin qurulması, rəqabətədavamlı şəraitdə aparıcı tədqiqat-təhlil (beyin) mərkəzi kimi inkişaf üzrə tərəfdaşlıq



# KONKRET VƏZİFƏLƏR:

- Cəmiyyət inkişafının müxtəlif aspektləri, ictimai-siyasi, sosial-mədəni məsələlər, mövcud problemlərin həlli və digər istiqamətlərdə aparılan araşdırmaların nəticələrini, bu sahədə təklif və proqnozları Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək;
- Hökumət tərəfindən aparılan islahatların səmərəliliyini artırmaq məqsədilə aidiyyəti dövlət qurumları ilə birgə sorğular və tədqiqatlar əsasında təhlillər aparmaq, islahatların mümkün nəticələrini proqnozlaşdırmaq;
- Dövlət qurumları ilə müvafiq məlumat mübadiləsini həyata keçirməklə onları sosial tədqiqatlara əsaslanan müvafiq statistik və analitik məlumatlarla təmin etmək;
- Həyata keçirilən siyasət, dövlət orqanlarının fəaliyyəti üzrə ictimai rəyi öyrənmək məqsədilə sosioloji sorğular keçirmək və təhlillər aparmaq, nəticələrə dair rəy və təkliflər hazırlamaq;
- Ölkədə keçirilən seçkilər və referendumlar zamanı ictimai rəyi öyrənərək nəticələri təhlil etmək və bu barədə hesabatlar təqdim etmək;
- Dövlət idarəetməsi və ictimai münasibətlərdə davranış, eləcə də sosial və siyasi psixologiya nəzəriyyələrinin qiymətləndirilməsinə dair dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək, bu sahədə araşdırmalar, təhlillər və qiymətləndirmələr aparmaq;
- Müasir informasiya texnologiyaları və innovativ həll üsulları vasitəsilə fərdlərlə dövlət orqanları arasında münasibətlərin daha səmərəli formada qurulması ilə bağlı təkliflər təqdim etmək;
- İnformasiya resurslarının, sosial şəbəkələrin təhlili və sosioloji sorğular əsasında ictimai fikri öyrənmək, siyasi, sosial trendləri, cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələləri müəyyən etmək və bu barədə aidiyyəti dövlət orqanlarını və qurumlarını məlumatlandırmaq;
- Sosial rifah qiymətləndirilməsi üzrə beynəlxalq hesabat və indekslərin müqayisəli təhlili;
- Dövlət siyasətinin mütəmadi şərhini, cəmiyyətə əlçatanlığını təmin etmək, dövlətin müxtəlif sahələrdə gördüyü işlərin əhaliyə çatdırılmasını təşkil etmək və həyata keçirmək;
- Etno-siyasi, dini münasibətləri və problemləri təhlil etmək, bu sahədə mümkün problemləri proqnozlaşdırmaq və bununla bağlı təkliflər hazırlamaq;
- Azərbaycan diasporunun, QHT-lərinin "yumşaq güc" və "publik diplomatiya"nın tərkib hissəsi kimi fəaliyyətini təhlil etmək və bu istiqamətdə təkliflər hazırlamaq;
- Sosial tədqiqatlar sahəsində qanunvericilik aktlarının, inkişaf konsepsiyalarının və məqsədyönlü proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;
- Normativ hüquqi aktların layihələrinin hazırlanması mərhələsində vətəndaş cəmiyyəti institutları ilə birgə ictimai dinləmələr təşkil etmək, qanunvericilik təşəbbüsü ilə çıxış edən subyektləri məlumatlandırmaq;
- Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və burada Mərkəzin fəaliyyətinə aid olan məsələlər üzrə dövlət öhdəliklərinin yerinə yetirilməsini təmin etmək;
- Qanunvericiliklə nəzərdə tutulan hallarda və qaydada müvafiq məsələlərə münasibət bildirmək;
- Dövlət qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin sosial tədqiqatlar sahəsində fəaliyyətini əlaqələndirmək;
- Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının müvafiq struktur bölməsinə davamlı olaraq təhlil, tədqiqat və sosioloji sorğuların nəticələrini, habelə Mərkəzin inkişaf istiqamətləri, strateji məqsədləri və fəaliyyət planları ilə bağlı təkliflərini təqdim etmək və s.

# PROFİLDƏ 3 ƏSAS XƏTT:

fəaliyyət öhdəlikləri üzrə
**DİGƏR İŞLƏR**

**TƏDQİQATLAR**




**İCTİMAİ TƏDBİRLƏR**

STM

## RƏQƏMLƏRDƏ - 5 İL (02. 2019 - 02. 2024)

| | |
|---|---|
| **120** | **DATA ƏSASLI SOSİOLOJİ TƏDQİQATLAR - SORĞU LAYİHƏLƏRİ**<br>ümumölkə və beynəlxalq: kəmiyyət və keyfiyyət, dərinləşmiş intervyu, ekspert sorğuları, fokus qrup, monitorinq, blitz və s. |
| **98** | **ANALİTİK HESABATLAR, TƏDQİQAT VƏ İCMAL SƏNƏDLƏRİ** |
| **648** | **TƏHLİL SƏNƏDLƏRİ**<br>analitik arayışlar, tematik mövqe sənədləri, siyasət təklifləri və s. |
| **46** | **ÇAP EDİLMİŞ HESABAT VƏ JURNALLAR** |
| **3** | **SOSİAL TƏDQİQATLAR JURNALI**<br>beynəlxalq elmi-analitik jurnalın buraxılış sayı |
| **173** | **ELMİ MƏQALƏ** |
| **680** | **ANALİTİK ŞƏRHLƏR, EKSPERT DƏYƏRLƏNDİRMƏLƏRİ VƏ ELMİ-PUBLİSİSTİK YAZILAR** |
| **10** | **KİTAB LAYİHƏSİ**<br>müəllif nəşri və tərcümə |
| **1500+** | **STM.AZ SAYTINDA YERLƏŞDİRİLMİŞ MATERİALLAR** |
| **600+** | **STM TV-DƏ (ONLAYN KANAL) VİDEO MƏZMUNLAR**<br>analitik proqramlar, sujetlər, çarxlar, sorğu nəticələri və s. |
| **9300+** | **MEDİADA ÇIXIŞLAR / MÜSAHİBƏLƏR** |
| **165** | **TƏDBİRLƏRDƏ İŞTİRAK (VƏ MƏRUZƏ)**<br>elmi konfrans, yerli və beynəlxalq təlimlər, seminar, vebinar və s. |
| **72** | **TƏDBİRLƏR / GÖRÜŞLƏR** |
| **17** | **TƏRƏFDAŞLAR / ƏMƏKDAŞLIQ MEMORANDUMU** |
| **15** | **BİRGƏ LAYİHƏLƏR**<br>dövlət və özəl təşkilatlardan (yerli və beynəlxalq) sifariş əsaslı |

# 5 İLLİK İNKİŞAF

## Sosioloji rəy sorğularında
## 100.000 - dən çox
## respondent iştirakı




**TƏDQİQATLARIN MİQYASI**

- ümumölkə → iqtisadi rayonlar üzrə
- beynəlxalq → müxtəlif ölkə və regionlar üzrə

# İCMAL STATİSTİKA

## TANITIM VƏ MEDİA FƏALİYYƏT:

- ÇAP VƏ RƏQƏMSAL İCTİMAİ MULTİMEDİA TANITIM MATERİALLARI
- İNFORMATİV-VİDEOQRAFİK MƏZMUNLAR
- PRESS-RELİZ VƏ DİGƏR İCTİMAİ AÇIQLAMA VƏ YAZILAR
- MÜXTƏLİF JANRDA MEDİA BURAXILIŞ VƏ ANALİTİK PROQRAMLAR
- SOSİAL MEDİA MƏZMUNLARI
- MƏLUMAT ÇARXLARI VƏ SUJETLƏR

**2K+**
2000-dən çox

## EKSPERT-İCTİMAİ FƏALLIQ:

- YERLİ VƏ XARİCİ MEDİA PLATFORMALARINDA EKSPERT ÇIXIŞLARI
- SİYASİ-ANALİTİK ŞƏRHLƏR
- MÜSAHİBƏ VƏ RƏYLƏR

**9K+**
9000-dən çox

### PORTFOLİO TREND



# ANALİTİK MATERİALLAR









# YADDAQALAN TƏDBİRLƏR

# STM KOLLEKTİVİ













































# SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

STM - DAİM ƏLÇATAN!

## SOSİAL MEDİA

@stm_az

@stm.az

Sosial Tədqiqatlar Mərkəzi

STM TV & Sosial Tədqiqatlar Mərkəzi

Sosial Tədqiqatlar Mərkəzi (STM) /
Social Research Center (SRC)

(+994) 12 510 70 78 /
70 69 /
23 75

İ.Qutqaşınlı küç. 18
Bakı ş., AZ1073

office@stm.az

www.stm.az

BAKI 2024

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ